https://doi.org/10.59849/3006-1342.2025.3.42
UOT 930.85

*Sevinc Lefik qızı Axundova*
*Bakı Slavyan Universiteti*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Alidə Zahir qızı Manaflı*
*Bakı Slavyan Universiteti*
*Magistrant*
*E-mail:* alide.manafli@mail.ru

# XIX ƏSRİN İKİNCİ YARISINDA QƏRBİ AZƏRBAYCANDA İCTİMAİ-SİYASİ MÜHİTİN TƏHSİLİN İNKİŞAFINA TƏSİRİ

*Məqalədə Qafqazı işğal edən Rusiya imperiyasının diyarda həyata keçirdiyi ictimai-siyasi həyatın bütün sahələri, o cümlədən maarif sahəsində çarizmin həyata keçirdiyi siyasət araşdırılır, təhlil olunur. Gösətrilir ki, Qafqazı işğal edən Rusiya imperiyasının diyarda həyata keçirdiyi siyasət xəttinin bütün istiqamətləri imperiyanın mənafelərinə xidmət edirdi. Burada çar Rusiyasının bölgənin etnik tərkibini dəyişərək xristianlaşdırmaq, bölgənin iqtisadiyyatını, idarəçiliyini mərkəzi Rusiya qayda-qanunlarına tabe etmək üçün müxtəlif islahatlar keçirməsinə baxmayaraq İrəvanın əsl Azərbaycan şəhəri olaraq qalması, vətənimizin mühüm iqtisadi, siyasi və mədəni mərkəzi kimi tanınması izah olunmuşdur. XIX əsrin ortaları və ikinci yarısında çarizmin qoyduğu bütün məhdudiyyətlərə baxmayaraq, İrəvanda ana dilində təhsil verən və yeni tədris-təlim üsuluna əsaslanan təhsil müəssisələri şəbəkəsinin genişlənməsi, fundamental elmlərə marağın artması, müxtəlif elm sahələrində peşəkar səviyyədə çalışan mütəxəssislərin formalaşması dövrün sosial-iqtisadi tələbatından irəli gələn qanunauyğun hadisə kimi göstərilmişdir.*

*Açar sözlər:* Qərbi Azərbaycan, İrəvan quberniyası, Rusiya, xristianlaşdırmaq, köçürmə, təhsil, məktəb

XIX yüzilliyin əvvəllərində təcavüzkar Çar Rusiyasının çoxminli qəsbkar ordusu tərəfindən İrəvan qalası 1827-ci ildə bir aylıq müqavimətdən sonra qəsb edildi. İrəvan xanlığının ləğvindən sonra da İrəvan şəhəri öz hərbi-inzibati, iqtisadi-ictimai və mədəni mərkəz kimi rolunu itirmədi. Azərbaycan Respublikasının Prezidenti, cənab İ.Əliyevin də dediyi kimi, "İrəvan şəhəri tarixən azərbaycanlıların köklü yaşadıqları böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmışdır. Şəhərdə Azərbaycan xalqına məxsus son dərəcə zəngin ədəbi-mədəni mühit formalaşmışdı" [3].

İrəvan və Naxçıvan xanlıqlarını işğal etdikdən sonra çar Rusiyası bu bölgəni Azərbaycandan ayırmaq, Osmanlı Türkiyəsi və Qacar dövləti sərhədlərində bufer zona yaratmaq, bölgənin etnik tərkibini dəyişərək xristianlaşdırmaq, bölgənin iqtisadiyyatını, idarəçiliyini mərkəzi Rusiya qayda-qanunlarına tabe etmək üçün müxtəlif islahatlar keçirmişdi. Çar Rusiyasının ilk siyasəti erməniləri qonşu dövlətlərdən Azərbaycanın İrəvan, Naxçıvan, Ordubad, Qarabağ və digər bölgələrinə köçürmək olmuşdur. Bu köçürmələr XIX yüzilliyin 20-ci illərinin sonlarından başlayaraq XX yüzilliyin əvvəllərinə qədər davam etmişdir. Digər tərəfdən, çar hakimiyyət orqanlarının apardığı inzibati-ərazi bölgüsü islahatı ilə İrəvan bölgəsində "Erməni vilayəti", Tiflis quberniyasına daxil olan İrəvan və Naxçıvan qəzaları, nəhayət İrəvan quberniyası yaradılmışdır.

Rusiya Şimali Azərbaycanı, o cümlədən onun tərkib hissəsi olan İrəvan quberniyasını işğal etdikdən sonra bir sıra iqtisadi-siyasi məsələlərlə bərabər təhsil sistemində də yenilik

etmək zəruriyyəti ilə qarşılaşdı. Lakin bu zərurət heç də xalqın savadlanmasına deyil, sadəcə özünə sadiq məmurlar ordusu yaratmaq niyyəti güdmüşdü. Çünki yaranmış Avropa tipli məktəblərdə əsasən rus dili və mədəniyyəti tədris edilirdi. Qeyd etmək lazımdır ki, bəhs etdiyimiz dövrdə İrəvan quberniyasında çar hakimiyyət orqanları tərəfindən açılmış Avropa tipli xəzinə məktəbləri ilə paralel məscidlərin və erməni kilsəsinin nəzdində açılmış dini və xüsusi şəxslər tərəfindən maliyyələşdirilən şəxsi məktəblər fəaliyyət göstərmişdir [4, s. 468]

İrəvan quberniyasında ənənəvi təhsil sistemi məscidlərin nəzdində fəaliyyət göstərmişdir. Məktəb (mollaxana) və ibtidai mədrəsələr uzun zaman azərbaycanlılar üçün yeganə təhsil ocaqları olmuşdur. Həmin məktəb və mədrəsələr vasitəsi ilə müsəlman ruhaniləri gənc nəslə oxuyub-yazmağı öyrətməklə bərabər, dini və qismən dünyəvi təhsil də verirdilər. Bu məktəblərdə xalqımızın görkəmli nümayəndələri təhsil almışdılar [1, s. 6]. Qeyd etmək lazımdır ki, Rusiya işğalından sonra din xadimlərinin özləri olduğu kimi, məscidlərin nəzdində fəaliyyət göstərən məktəb və mədrəsələr də hökumət tərəfindən ciddi nəzarətə götürülmüşdü [8, s. 213].

Çar Rusiyası işğaldan sonra Cənubi Qafqazda, o cümlədən İrəvan quberniyasında ənənəvi dini məktəblərlə bərabər, yeni Avropa tipli məktəblərin yaradılmasını qərara aldı. XIX əsrin ikinci yarısından Azərbaycanda və onun tərkib hissəsi olan İrəvan quberniyasında kənd və şəhərlərdə müxtəif cür dövlət məktəbləri qəza, ibtidai sinif və seminariya tipli məktəblər fəaliyyət göstərmişdir.

İrəvanda ilk dövlət məktəbi qəza məktəbi tipində olmuşdu. Yerlərdə yeni tipli-qəza məktəblərinin açılması barədə Maarif Nazirliyi qarşısında qaldırılmış məsələ ilə əlaqədar olaraq 1829-cu il avqustun 2-də çar tərəfindən Cənubi Qafqaz məktəblərinin vəziyyəti haqqında "Əsasnamə" təsdiq edilmişdi. Bu əsasnaməyə görə, qəzalarda açılan Avropa tipli məktəblərdə qəbul edilən dərs proqramında dini təhsil, rus və yerli dillər və hesab fənlərinin tədris edilməsi qərara alınmışdı. Qafqazda yeni tipli məktəblərin açılmasında "maraqlı olan" çar Rusiyası təhsili daimi və ciddi nəzarətdə saxlayırdı. 1848-ci il dekabrın 18-də "Qafqaz təhsil dairəsi" yaradılması haqqında çar I Nikolayın imzası ilə sərəncam imzalandı. Həmin təlimatda eyni zamanda kəndlilərin dövlət məktəblərində təhsil almasına qadağa qoyulmuşdu. Təlimatın 5-ci fəsilinin 89-cu bölməsində xəzinə, mülkədar və vəqf torpaqlarında çalışan kəndlilər dövlət məktəblərində təhsil ala bilməzdi.

Yerlərdə məmur kadrlarına ehtiyacı olan və onları Rusiyadan dəvət etməyin məqsədəuyğun olmadığını nəzərə alan çar hakimiyyət orqanları belə məktəbləri açmaqla üç məqsəd güdürdü. Birincisi, zadəgan və məmur uşaqlarını dövlət qulluğuna hazırlamaq; ikincisi, yeni hakimiyyətə sədaqətlə qulluq edən şəhər və digər imtiyazlı təbəqələrin uşaqlarını savadlandırmaq; üçüncüsü isə daha yüksək təhsil sistemi hesab edilən gimnaziyaya qəbul olunmaq üçün uşaq hazırlamaq. Bu məktəblərdə təhsil pulsuz idi.Yaş həddinə görə təhsil alan uşaqlar 9 yaşından kiçik, 15 yaşından böyük olmamalı idi. Qəza məktəblərində rus dili əsas fənn hesab edilirdi. Lakin yerli xalqdan rus dilini bilən sadiq məmurlara olan ehtiyacı nəzərə alan çar hakimiyyət orqanları qəza məktəblərində Azərbaycan türkcəsinin tədris edilməsinə razılıq vermək məcburiyyətində qalmışdı.

İrəvan qəza məktəbi XIX yüzilliyin ortalarından üçsinifli məktəb kimi fəaliyyət göstərməyə başladı [7,s. 43]. Bunun nəticəsində oxuyan şagirdlərin sayı da artmışdı. Siniflərin sayı artdıqdan sonra qəza məktəbində kəndli uşaqlarının da oxumasına icazə verilmişdi. 1850-ci ildə bu qəza məktəbində 6 müəllim və 109 şagird qeydə alınmışdı. Bu şagirdlərdən 48-i imtiyazlı təbəqələrin və məmurların, 61-i isə kəndlilərin uşaqları idi. Məktəbin tərkibində 200 nüsxə kitabı olan kitabxana da fəaliyyət göstərmişdi.

1864-cü il noyabrın 19-da "Gimnaziya və progimnaziyanın əsasnaməsi"təsdiq edildikdən sonra təhsil sistemində dəyişiklik baş vermişdi. Bu, əsasnamə İrəvan qəza məktəbində də dəyişiklik yaratdı. Belə ki, 1868-ci ilə qədər fəaliyyət göstərmiş İrəvan qəza

məktəbi dördsinifli progimnaziyaya çevrildi [7, s. 45]. 1869-cu ildə progimnaziyanın tərkibində pansion yaradılmışdı. Progimnaziyanın tərkibində fəaliyyət göstərən pansion hökumət tərəfindən şəhərdən kənarda yaşayan kasıb məmurların və həm də xanların, ağaların və məliklərin uşaqlarını rus məktəblərinə hazırlanması üçün yaradılmışdı.

XIX əsrin 80-ci illərində İrəvan şəhərinin ictimai həyatında çox mühüm hadisələr baş vermişdir. 1881-ci ildə İrəvan Kişi Gimnaziyası, İrəvan Müəllimlər Seminariyası, 1884-cü ildə İrəvan Qız Gimnaziyası fəaliyyətə başlamışdır. İrəvan Müəllimlər Seminariyası Azərbaycan məktəbləri üçün müəllim kadrlarının hazırlanmasında mühüm rol oynamışdır. XIX əsrin əvvəllərindən fəaliyyətə başlayan İrəvan progimnaziyası, ikisinifli ibtidai məktəb, İrəvan Kişi Gimnaziyası İrəvanda maarifçiliyin inkişafında, yüksək təhsil görmüş azərbaycanlıların yetişməsində xüsusi rol oynamışdır. N.Mustafa bu konteksdə fikrini əsaslandıraraq yazır: "İrəvan Kişi Gimnaziyası Azərbaycan xalqı, elmi, mədəniyyəti və incəsənəti üçün tanınmış şəxslər yetişdirmişdir [6, s. 117].

Beləliklə, göstərilən dövrdə çarizmin əsarətdə olan xalqlara qarşı həyata keçirdiyi mənfur ruslaşdıma siyasəti və xüsusilə ermənilərin türk-müsəlman əhalisinə qarşı 1905-1906 və 1918-1920-ci illərdə həyata keçirdikləri kütləvi qırğınlar soyqırım siyasəti İrəvanın maarif sisteminə, ədəbi mühit və mətbuatının inkişafına mənfi təsir göstərən başlıca amillər olmuşdur.

Belə nəticəyə gəlinir ki, çarizmin qoyduğu bütün məhdudiyyətlərə baxmayaraq XIX əsrin ikinci yarısında İrəvanda ana dilində təhsil verən və yeni tədris-təlim üsuluna əsaslanan təhsil müəssisələri şəbəkəsinin genişlənməsi dövrün sosial-iqtisadi tələbatından irəli gələn qanunauyğun hadisə idi. Rusiya imperiyasında və o cümlədən onun milli ucqarlarından birini təşkil edən Qərbi Azərbaycanda maarif sisteminin durumunda xeyli yeni və mütərəqqi təzahürlər meydana gəlmiş, hələ əsası XIX əsrdə qoyulmuş dünyəvi məktəblər şəbəkəsi xeyli dərəcədə genişlənmiş, müsəlman ucqarlarda təhsilə qoyulmuş və xürafatdan irəli gələn əngəllər tədricən aradan qaldırılırdı.

## ƏDƏBİYYAT

1. Adıgözəlov Ə. Qərbi Azərbaycandakı milli məktəblərimizin tarixindən. Bakı,"Təhsil", 2003, 92 s.
2. Allahverdiyev C.,Cəfərov C.İrəvanda milli maarifçilik mühiti. "Şərq-Qərb", 2017, 440 s .
3. Əliyev İ.H. "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" 29. dekabr 2021–ci il tarixli, 3094 nömrəli sərəncam/ Xalq qəzeti, 30 dekabr, 2021-ci il.
4. Qarayev E. Qərbi Azərbaycan XIX yüzilliyin ikinci yarısı - XX yüzilliyin əvvəllərində (İrəvan quberniyasının materialları əsasında), Bakı, "Füyuzat", 2024, 564 s.
5. Məmmədov İ. Tariximiz, torpağımız, taleyimiz. Bakı, 2002, 699 s.
6. Nazim Mustafa. İrəvan şəhəri. Bakı, Red N Line MMC, 2020, 292 s.
7. Rüstəmov F. İrəvan müəllimlər seminariyası və onun məzunları, Bakı: Elm və təhsil, 2022, 240 s.
8. XIX-XX əsrin əvvəllərində İrəvan şəhərinin tarixindən. AMEA "Elmi infornasiya və nəşriyyat işləri" şöbəsi, Bakı, 2023, 306 s.

УДК 930.85

*Севиндж Лефик кызы Ахундова,*
*Алида Захир кызы Манафлы*
*Бакинский Славянский Университет*

ВЛИЯНИЕ ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОЙ СРЕДЫ НА РАЗВИТИЕ ОБРАЗОВАНИЯ В ЗАПАДНОМ АЗЕРБАЙДЖАНЕ ВО ВТОРОЙ ПОЛОВИНЕ XIX ВЕКА

*РЕЗЮМЕ*

В статье рассматриваются и анализируются все сферы общественно-политической жизни Российской империи, оккупировавшей Кавказ, в регионе, включая политику, проводимую царизмом в области образования. Показывается, что все направления политики, проводимой Российской империей в регионе, служили интересам империи. Несмотря на то, что царская Россия проводила различные реформы по изменению этнического состава региона, его христианизации, подчинению экономики и управления региона нормам и правилам центральной России, поясняется, что Ереван оставался истинно азербайджанским городом и признавался важным экономическим, политическим и культурным центром нашей родины. Несмотря на все ограничения, наложенные царизмом в середине и во второй половине XIX века, расширение сети учебных заведений в Ереване, предоставлявших образование на родном языке и основанных на новой методике преподавания и обучения, рост интереса к фундаментальным наукам и формирование специалистов, работающих на профессиональном уровне в различных областях науки, показаны как закономерное явление, вытекающее из социально-экономических потребностей того времени.

UDC 930.85

*Sevinj Lefik Akhundova,*
*Alida Zahir Manafli*
*Baku Slavic University*

THE INFLUENCE OF THE SOCIO-POLITICAL ENVIRONMENT ON THE DEVELOPMENT OF EDUCATION IN WESTERN AZERBAIJAN IN THE SECOND HALF OF THE XIX CENTURY

*SUMMARY*

*Key words:* Western Azerbaijan, Yerevan Governorate, Russia, Christianization, resettlement, education, school

The article also discusses the processes of resettlement of various ethnic groups, which significantly influenced the social and cultural landscape of the region. Christianization was one of the tools used by Russian policy to strengthen control over the Caucasus. However, despite these pressures and restrictions, the local Azerbaijani population managed to preserve their traditions, language, and cultural identity, which was reflected in the educational activities of that period.

Special attention is given to the development of schools and the education system, which, despite imperial limitations, gradually expanded by introducing modern teaching methods and providing access to education in the native language. This educational

transformation contributed to the emergence of a new generation of specialists capable of meeting the challenges of the time and advancing scientific fields relevant to the region.

Thus, the study demonstrates that the socio-political environment of the second half of the 19th century, despite external constraints, fostered the development of education and cultural life in Western Azerbaijan, as well as the strengthening of national consciousness and identity.

***Saxil oldu: 18.11.2025-ci il***